# Çarlz Dikkensin romanlarında uşaqlar sosial ziddiyyətlərin qurbanı kimi

**Sevinc Eyvazova**
*Azərbaycan Universitetinin baş müəllimi*
**E-mail:** eyvazova.sevinc@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. Ç.M. Qaraşarlı,
filol.ü.f.d., dos. K.H. Cəfərova

**Açar sözlər:** ədəbiyyat, uşaq, əsər, ziddiyyət, ictimai, mühit, dünya, roman
**Ключевые слова:** литература, дети, произведения, конфликт, общественный, среда, мир, роман
**Key words:** literature, child, work, contradiction, social, environment, world, novel

Dünya ədəbiyyatına nəzər salsaq görərik ki, müxtəlif dövrlərdə müxtəlif xalqların yazıçıları öz əsərlərində uşaq problemini əks etdirmişdir. XIX əsrin ingilis tənqidi realizminin görkəmli nümayəndələrindən olan Çarlz Dikkens də bu qəbil yazıçılardandır. Onun yaradıcılığını nəzərdən keçirsək görərik ki, yazıçı bütün əsərlərində qismən də olsa, uşaq probleminə toxunmuşdur.

Lakin o, iki əsərində (Oliver Tvistin macəraları və Balaca Dorrit) sosial ziddiyyətlərin qurbanı olan uşaqların problemini daha geniş və qabarıq vermişdir.

Sayca üçüncü olan "Oliver Tvistin macəraları" romanı Dikkensin yaradıcılığında xüsusi yer tutur. Öz zəmanəsinin ictimai mənzərəsini geniş əks etdirən, kapitalist-burjua şəraitində yoxsulların ağır vəziyyətini, xüsusən səfillərin və kiçik yaşlı uşaqların ehtiyac üzündən çəkdiyi müsibətləri inandırıcı bir qələmlə təsvir edən bu roman keçən əsrin ingilis ədəbiyyatında tənqidi realizmin ən gözəl nümunələrindən biri sayılır. Əsərdə qoyulan problem, kiçik yaşlı uşaqlar sosial mühitin qurbanı kimi, bu gün də aktualdır.

Oliver yurdsuzlar evində dünyaya göz açmışdır. Onun haqqında danışmazdan əvvəl XIX əsr İngiltərəsinin eybəcərliklərini özündə cəmləşdirən yurdsuzlar evi haqqında məlumat vermək istərdim.

Yurdsuzlar evi İngiltərədə yoxsullar və yurdsuzlar üçün, eləcə də yetimlər və kimsəsiz qalmış uşaqlar üçün düzəlmiş xüsusi ev idi. Belə evlərdə yaşayanlar üçün çox sərt və dözülməz şərait yaradılırdı. Yarıac saxlanılan bu adamlar işləyir, onların hamısı vəhşiliklə istismar olunurdu. Onların əzab və işgəncəli həyatı əbədi həbsxana idi. İngiltərədə həmin dövrdə ictimai binaların arasında, böyük və kiçik şəhərlərin demək olar ki, hamısında yurdsuzlar evinə rast gəlmək olardı. Bu yurdsuzlar evinin ağır və sərt qayda-qanunları yazıçının bu əsərində real və inandırıcı şəkildə öz təsvirini tapmışdır. Oliver də yurdsuzlar evində göz açmış minlərlə uşaqlardan biri idi. Onun anası da yaşadığı cəmiyyətin haqsızlıqlarının qurbanı olmuşdur. Küçədən tapılmış ac-yalavac olan bu qadın uşağı dünyaya gələn gün keçinir və heç kəs də bu qadın haqqında bir kəlmə bilmir və bilmək də istəmir. Ona iftiralar yağdırırlar. Onun dünyaya gətirdiyi bu oğlan uşağı isə doğulan gündən bütün yetim uşaqlar kimi qoluna yarlıq bağlandı və müəyyən edildi ki, o məhəllə uşağıdır, bütün ömrü boyu sillə və yumruq altında qalan, həmçinin nifrət etdiyi və heç kəsdən mərhəmət görməyən müti ac yoxsul kimi tanınacaq, öz həyat yolunu da belə başa vuracaqdır.

Yurdsuzlar evi xəyanət və yalan sistemindən ibarət bir qüvvənin ixtiyarında idi. 1834-cü

ildə İngiltərə hökuməti yoxsullar haqqında qanun qəbul etmişdir. Və bu qanuna görə yetimlərə və yoxsullara hər cür kömək yalnız yurdsuzlar evi vasitəsilə həyata keçirilməli idi. Yurdsuzlar evində südəmər uşaqlara baxmaq və onların zəruri ehtiyacını ödəmək üçün dayə tapılmadıqda onları doqquz yaşına qədər yurdsuzlar evindən kənarda yerləşən fermaya göndərirdilər. Bu uşaqlara heç fermada da yaxşı baxılmırdı. Yazıçı cəmiyyətin uşaqlara olan pis münasibətini ifadə etməkdən sarı onları əsərdə cinayətkar və ya yoxsullar haqqında qanunu pozan uşaqlar adlandırmışdır.

Dikkens bu əsərdə məmur özbaşınalığını çox aydın şəkildə göstərmişdir. Bu baxımdan məhəllə bidli vəzifəsini yerinə yetirən mister Bambl surəti diqqəti şox cəlb edir.

Bidl əvvələr məhəllə yığıncaqlarında xidmət edirdi, camaatı iclasa toplayırdı. O, həmçinin məhəllədə yoxsulların himayəsi işinə baxan məmurun tapşırıqlarını və sərəncamlarını yerinə yetirən bir xidmətçi kimi tanınırdı. Lakin tezliklə bidl özü həmin məmurun vəzifəsini ələ alıb, onu əvəz etməyə başladı. Tədricən o, yoxsulların maddi vəziyyətinin dərəcəsini özü təyin etməyə və yurdsuzlar evində, məhəllə kilsəsində, çox zaman bütün məhəllə ərazisində polis nəzarətini də həyata keçirməyə başladı. Dikkens öz əsərlərində bu məmurun surətini çox tez-tez təsvir etmişdir. Həmişə bidli mənfi planda təsvir edən yazıçı dövrünün ictimai və sosial problemlərini dərindən müşahidə və tədqiq edərək inanmışdır ki, bidl və onun kimi məmurlar yoxsulların taleyini özbaşına həll edirlər. Onların üzərində heç bir nəzarət olmadığına görə yoxsulların böyük bir hissəsi aclığın, kobudluğun və zorakılığın qurbanı olurlar. Və Dikkens dəfələrlə öz əsərlərində göstərmişdir ki, cəmiyyətdə olan özbaşınalığın, qanunsuzluğun, zorakılığın və bir sözlə sosial ziddiyyətlərin ən böyük qurbanları kiçik yaşlı uşaqlar olmuşlar.

Kiçik yaşlı uşaqların tərbiyə olunduğu yurdsuzlar evindən kənarda yerləşən fermadakı vəziyyət daha acınacaqlı idi. Fermadakı uşaqlar doqquz yaşına çatdıqdan sonra yurdsuzlar evinə təhvil verilir, orada da məhəllə şurasının müdrik qərarı ilə onlara müxtəlif uşağa aid olmayan sənətlər öyrədilirdi. Oliver də başqa uşaqlar kimi doqquz yaşı tamam olanda yurdsuzlar evinə gətirildi. Və ona burada məhəllə şurasının qərarı ilə kəndir lifi açmaq kimi çox da mürəkkəb olmayan bir iş tapşırıldı. Məhəllə şurasının üzvləri kimsəsiz uşaqlara göstərdikləri bu qayğının müqabilində onları naşükür adlandırırdılar. Məmurlar yurdsuzlar evində verilən pulsuz yeməyə görə bura yoxsulların kütləvi axınından qorxub gündəlik yemək normasını o qədər azaltmışdılar ki, əslində onların bu hərəkəti onların dili ilə desək yoxsullara sərbəst seçim imkanı verirdi. Onlar iki şeydən birini seçə bilərdilər: ya yurdsuzlar evində yavaş-yavaş acından çərləyib ölməyi, ya da yurdsuzlar evində kənarda tez və sürətlə ölməyi. Yeni tətbiq edilmiş qayda-qanuna görə yurdsuzlar evində olanlara gündə üç dəfə yarma horrası, həftədə iki dəfə bir baş soğan, bazar günlərində isə para bulki verilirdi. Uşaqlara verilən yarma horrasının keyfiyyəti çox pis də olsa uşaqları bu qətiyyən maraqlandırmırdı. Verilən yeməyin azlığı onları azğınlaşdırırdı. Uşaqların yenidən horra istəməsi isə cinayət hesab olunurdu. Buna heç kəs cəsarət edə bilməzdi.

Lakin Oliverin əlavə horra payı istəməsi ona baha başa gəldi. Bu hərəkəti biabırçı və təhqiramiz cinayət, Oliveri isə üsyankar adlandıran məhəllə şurası Oliverin bu hərəkətini başqaları üçün nümunə olacağından qorxub onu qaranlıq otaqda dustaq saxladılar.

Açıq-aşkar görünürdü ki, məhəllə şurası Oliverdən canını qurtarmaq istəyir. Çünki onlar belə hesab edirdilər ki, uşaqlar dövlətin onlara göstərdikləri bu yurdsuzlar evindəki qayğını lazımınca qiymətləndirməli, allahlarına şükr, ağalarına təzim etməlidirlər.

Uşaqlar arasında üsyankarlıq, öz haqqlarını tələb etmə, əlbəttə, məmurları narahat etməyə bilməzdi. Məmurlar Oliveri bu hərəkətinə görə lazımınca cəzalandırdılar. Bütün bu işgəncələrlə kifayətlənməyən məhəllə şurası özlərinin dediyi kimi yurdsuzlar evi idarəsinin

boynundan asılan dəyirman daşını, Oliver Tvisti, şəyirdliyə götürən şəxsə beş funt məbləğində mükafat verəcəklərini elan etdilər. Əlbəttə, bu məbləğ hər şeyə qənaət edən, hətta xərclər ucuz başa gəlsin deyə uşaqları burun dəsmalından məhrum edən məhəllə şurası üçün yaramaz üsyankardan xilas olmaq üçün çox vacib idi.

Oliveri ilk olaraq şəyirdliyə götürmək istəyən baca təmizləyən Gemfildi yazıçı çox qəddar təsvir etmişdir. Gemfildə şəyird götürmək məhz yurdsuzlar evindən ona görə sərf edirdi ki, birincisi o bilirdi ki. bu uşaqlara cüzi yemək verildiyindən onlar arıq olur və onun məşğul olduğu, baca təmizləmək kimi işdə bu çox vacib şərt idi. İkincisi bu uşaqlarin taleyi ilə maraqlanan olmadığı üçün onları istənilən şəkildə istismar etmək, hətta sözə baxmadıqda kötəkləyib öldürmək olurdu. Əsərdə mister Gemfildən öz sarsaq sənətində etdiyi kəşfdən necə məharətlə danışdığının şahidi oluruq. Bu kəşf uşaqları dar bacalardan sürüşüb düşməyə vadar edən oddan ibarət idi. Lakin onun bu metodu məhəllə şurasının məmurlarını qətiyyən maraqlandırmır.

Yalnız Oliverin növbəti üsyankarlığı (məhkəmə hakiminin yanındakı) onu cəllad Gemfildin əlidən xilas edir. Onun növbəti hərəkət, özbaşınalığı məmurları riqqətə gətirir. Nəhayət onlar qərara alırlar ki, Oliverdən birdəfəlik xilas olmağın yeganə yolu təxirə salmadan onu dəniz səfərinə göndərməkdir. Çünki onlar əmin idilər ki, dəniz səfəri zamanı keyfli skipir bir çox hallarda olduğu kimi ya onu ölüncəyə qədər döyəcək, ya da ki, dəmir linglə vurub başını partladacaqlar. Və onun aqibəti ilə heç kəs maraqlanmayacaq. Gəmidə işləyən uşaqlara bu cür rəftar oradakı centlmenlərin çox sevdiyi və hər gün elədiyi adi bir əyləncə idi. Xoşbəxtlikdən, əgər bunu xoşbəxtlik adlandırmaq olarsa, Oliver "dəniz səyahəti"nə göndərilmədi. Onu tabutçu Sauyeberinin yanında şəyirdliyə qoydular. Beləliklə, yurdsuzlar evinin Oliverdən, Oliverin isə yurdsuzlar evindən canı qurtardı. Onun düşdüyü yeni şəraitin pisliyi yeni adamların kobud rəftarı onu heç də təəssüfləndirmirdi. Çünki axırıncı ayrıldığı yerin adamları daha dözülməz idi. Oliver ev yiyəsinin ona verdiyi sür-sümüyü, qırıntıları yeyir, tabutlar yığılmış dükanda piştaxtanın altında yatırdı. Yatmaq üçün piştaxtanın altındakı dar yerə girəndə isə o istəyirdi ki, kaş bu yer onun üçün tabut olaydı, onu isə, sakit və dərin yuxuya gedəndən sonra, bu tabutun içində aparıb dəfn edəydilər. Belə olsaydı onun qəbrinin üstündə ot göyərib göyə qalxardı, köhnə kilsədən eşidilən zəng səsləri isə həmişə ona layla deyərdi. Bu cür fikirlər uşaq qəlbinin nə qədər əzildiyindən, əzab çəkdiyindən xəbər verir.

Yaşadığı yerdə yeganə dostu Diklə vidalaşdıqdan sonra Oliver londona getməyi qərara alır. Yeddi gün yeddi gecə ac-susuz yol gedib şəhərə çatan Oliverin həyatın növbəti süprizindən xəbəri yox idi. Onun Londonda gördüyü ilk şəxs quldurbaşı Fecinin dəstəsinə daxil olan "zirək cüvəllağı" ləqəbi ilə tanınan Cek Daukens idi. Yorğun, ac, kimsəsiz, ümidsiz olan Oliver özü də bilmədən oğruların əhatəsinə düşür. O, Ceklə Fecinin yaşadığı məhəlləyə getməyə razı olur. Oliver hələ ömründə buradan iyrənc və miskin yer görməmişdir. Küçə çox dar və zibilli, havası isə üfunətli idi. Xırda dükanlar çox idi, lakin adama elə gəlirdi ki, burada satılan yeganə mal uşaqlardır, çünki belə gec vaxtda qapıların qabağında uşaqlar hələ də qaynaşırdı. Əsas küçəyə çıxan örtülü keçidlərin və həyətlərin arxasından bir-birinə bitişik kiçik evlər görünürdü, burada da sərxoş kişilər və qadınlar zibilin və palçığın içində əlləşirdilər. Bəzi evlərin qapılarından isə yekəpər və şübhəli cavanlar çıxır, haraya isə yollanırdılar. Bütün bunları görən Oliver buradan qaçmaq qərarına gəldi. Lakin gec idi. Oliberin şəhərə gələrkən ilk rast gəldiyi ev qoca yəhudi Fecinin idi. O, yetim qalmış kiçik uşaqları ələ keçirir, onların lap kiçik yaşlarından beyinlərini zədələyir, oğurluq sənətinin sirlərini öyrədirdi. Uşaqları oğurluğa alışdıran qoca onların əli ilə əldə etdiyi qəniməti yığıb

şahmar ilan kimi üstündə oturur. Cek Daukens, Çarli Beyts, Nensi də yəhudinin toruna uşaq vaxtlarında düşmüş, mənəviyyatları pozulan yeniyetmələrdir.

Qoca yəhudi Oliveri gördükdə kefi düzəlir. Toruna yaxşı bir ovun düşdüyünü zənn edir. Uşaqlar yəhudi üçün qazanc mənbəyi olmasına baxmayaraq, uçuq bir evdə, pis şəraitdə yaşayırlar.

Cek Daukens qoca yəhudinin əlinə keçmiş yetimlərdən biridir. O, çox qoçaq və qorxmaz olduğuna görə ona Zirək Cüvəllağı ləqəbi verilmişdir. O, lazım gələndə, dar amanda canını ələ verməmək üçün dostlarını darda qoyub qaçmağı da bacarır. Bütün bu keyfiyyətlərinə görə o, yəhudinin şagirdləri arasında xüsusi hüsn-rəğbətə malikdir. Cek məşğul olduğu sənəti, soyğunçuluğu, yüksək qiymətləndirərək başqa bir sənətlə məşğul olmağı alçaqlıq sayır. O, hətta öz təcrübəsindən istifadə edərək Olivərə məsləhət görür ki, bu işlə məşğul olsun, əks təqdirdə yəhudi onun axırına çıxacaqdır. Cek öz işinin mahiyyətini Olivərə açaraq qeyd edir ki, əgər o burun dəsmallarını və saatları ciblərdən çıxarmasa, onları bir başqası oğurlayıb aparacaqdır. Bundan cibi soyulan adam və bir də sən əziyyət çəkəcək, qazanan isə həmin şeyləri çırpışdıran oğlan olacaqdır. O, cinayətkar, soyğunçu olduğunu fəxrlə bildirir və sonra həbsə alınanda da peşman olmadığını deyir. Buradan biz yəhudinin təliminin yetim uşaqların beynində necə kök saldığını görürük.

Qoca yəhudinin qız şagirdlərindən biri Nensidir. Bu qızın həyatı Londonun küçələrində, ən iyrənc qumarxanalarda və oğru məskənlərində keçmişdir. Lakin bununla belə onda insanlığa xas olan xeyirxahlıq qalmışdır. Lakin bu qızın yaxşı və xeyirxah hissləri müqavimətə rast gəlirdi. Bu qız oğruların və quldurların rəzil yoldaşı, çirkli və iyrənc yavaxanalarda pozulub alçaldılmış bir məxluq idi. O, bütün ömrü boyu dar ağacından asılmaq təhlükəsi altında yaşayan ən əclaf canilərin köməkçisi idi. Bütün bunlara baxmayaraq Nensi həyatını təhlükəyə ataraq Oliverin yenidən quldurların əlinə keçməsinə mane olur. O, düşdüyü çirkablı həyatdan təngə gəlmişdir. Nensi bu cür həyatdan qurtarmağın yeganə yolu ölüm olduğunu düşünür. Xeyirxah miss Meyli ona tövbə etməyi, pis yoldan geri dönməyi, onun köməyini qəbul etməyi təklif edəndə Nensi bunun çox gec olduğunu israr edir, cəmiyyətin ona bəxş etdiyi bu xəstəlikdən xilas ola bilməyəcəyini deyir. Lakin öz cinayətkar dostlarına axıra kimi sadiq qalan qızın aqibəti Sayksın onu boğması ilə nəticələnir. Nensinin taleyi də sosial ziddiyyətlərin qurbanı olan yüz minlərlə yeniyetmənin taleyi kimi qurtarır.

Oliver yəhudinin evində isti sığınacaq və yeməklə təmin olunurdu. Yəhudi hətta onu şirnikləndirmək üçün bir az pul verir, onunla xoş rəftar edirdi. Bütün bunlara baxmayaraq, Oliverin yeni düşdüyü mühit onun ürəyincə deyildi. Onun həmyaşıdları Cüvəllağı və Carli hər gün “işə” oğurluğa gedir. Axşam isə qazanclarını yəhudiyə təhvil verirdilər. Yəhudi isə Oliverin hələ işə başlamasını lazım bilmir, ona xüsusi təlimlər keçirdi. Qoca yəhudi Olivərə təsir göstərə bilmirdi. Lakin o ümid edirdi ki, istifadə etdiyi “təlim metodları” onun köməyinə gələcəkdir.

Evdə tək qaldığı müddətdə oğlan yəhudinin ona verdiyi kitabları vərəqləməyə başlayırdı. Bu kitablarda məşhur canilərin həyatından və məhkəmə proseslərindən danışılırdı. Oliver bu kitablarda elə dəhşətli cinayətlər haqqında oxuyurdu ki, yadına düşəndə onun damarlarındakı qan donurdu. Burada boş və kimsəsiz kəndarası yollarda gizlincə öldürülənlər haqqında danışılırdı. Bütün bu dəhşətli və qorxunc əhvalatların təsviri o qədər real, aydın və inandırıcı idi ki, elə bil saralmış səhifələr qan ləkəsindən qızarmışdır, oxuduğu sözlər isə Oliverin qulaqlarında cingildəyirdi, elə bil ki, öldürülmüş adamların ruhları astadan həmin sözləri ona pıçıldayıb təkrar edirdilər. Bütün bunlardan dəhşətə gələn Oliver kitabı axıra qədər oxuya bilmlr, kənara tullayırdı. Sonra o, diz çökərək, dua edib allaha yalvarmağa başlayırdı ki, onu

bu cür əməllərdən uzaq etsin, gələcəkdə o qədər dəhşətli və iyrənc cinayətləri etmək üçün onu yaşadacaqsa, elə indi ona ölüm göndərsə daha yaxşıdır. O, dua edib yalvarırdı ki, allah onu qarşıdakı təhlükədən xilas etsin və mümkündürsə, hamının üz döndərdiyi, heç bir zaman dostların və qohum-əqrabanın nəfəsini duymamış, onların məhəbbətini görməmiş bu yazıq və bədbəxt uşağa kömək etsin. Hamının imtina etdiyi, üz döndərdiyi, səfil və yalqız vəziyyətdə, qəbahət və cinayət çirkabına düşüb qalmış bu uşağa məhz indi öz kömək əlini uzadıb, onu bu bəladan xilas etsin. Allah Oliverin dualarını eşidir və qoca yəhudinin növbəti dəfə qurduğu oğurliq əməliyyatında Oliver xoşbəxtlikdən yaxşı insanların əlinə düşür.

Yazıçı əsərdəki qoça yəhudi, Bill Sayks. Bidl kimi mənfi surətlərə qarşı, mister Braunlou, missis Meyli, roz, doktor Losbern kimi müsbət qəhrəmanları qoyur. Bütün bu xeyirxah insanları birləşdirən bir məqsəd Oliverə kömək etməkdir. Əsərdə müsbət qəhrəmanlardan biri olan Rozun xarici görkəmi qədər qəlbi də gözəl təsvir olunur. O da bacısı oğlu Oliver və bir çox uşaqlar kimi cəmiyyət tərəfindən damğalanmış, bir çox əzab-əziyyətdən sonra xeyirxah dul qadın missis Meyli tərəfindən himayə olunmuşdur. Roz var-dövlət içərisində qayğıkeş xanımın yanında yetkinləşmişdir. Roz çox xeyirxah, səmimi. Ürəyiyanan bir qəhrəman kimi verilmişdir. O, hələ Oliverə mənşəyini bilmədiyi, onu ilk gördüyü an, başqaları onu cinayətkar hesab etdiyi vaxt, rəhmi gəlmiş, onu həbsxanadan qurtarmışdır. Yazıçı onun xeyirxahlığını aşağıdakı kəlmələrlə ifadə etmişdir:

Hətta, əgər pozğun uşaq olsa belə, - Roz davam edirdi - özünüz fikirləşin, görün o necə də hələ gəncdir. Fikirləşin və təsəvvür edin ki, bəlkə, ola bilər, o heç bir dəfə də olsun ana nəvazişi görməmişdir, ev, səliqə və rahatlığın nə olduğunu bilməmişdir. Ola bilər ki, pis rəftar, döyülmək və ya aclıq onu pis adamlara qoşulmağa vadar etmiş və onlar da onu cinayətə getməyə məcbur etmişlər... Xala, əziz xalam, o xəstə uşağı həbsxanaların küncünə atmazdan əvvəl, allah xatirinə, siz özünüz də bu barədə düşünün və unutmayın ki, həbsxanaya düşsə, onun islah olub düzələcəyinə bəslənən son ümid də orada məhv olacaqdır! Nə qədər ki, gec deyil. Ona yazığınız gəlsin, ona mərhəmət edin! (1. s. 111).

Yazıçı qəhrəmanın dili ilə əslində cəmiyyəti dövrün və valideynlərin ucbatından cinayətkar uşaqların problemlərinin düz yola qaytarılmasına kömək etməyə çalışır. O, bununla başa salmağa çalışır ki, heç kəs bu dünyaya cinayətkar gəlmir və hər hansı bir səbəbdən sosial ziddiyyətlərin qurbanı olan cinayətkar uşaqları törətdiyi əməllərə görə həbsxanalara sürükləmək problemi həll edə bilməz, əksinə onu dərinləşdirə bilər.

Çarlz Dikkens "Oliver Tvistin macəraları" və bir sıra digər əsərlərində xeyirxah adamların timsalında bu məsələnin həlli yolunu göstərir. Lakin bildiyimiz kimi həmin dövrün çirkaba batmış İngiltərəsinin bu cür ağır probleminin həlli bir neçə adamın xeyirxah əməlləri ilə düzələ bilməzdi. Oliverin aqibəti xoşbəxt sonsuzluqla qurtarır. O, mister Braunlou ilə birlikdə yaşayır, təhsil alır. Biz bununla əsərlərinin əksəriyyəti xoşbəxt sonluqla qurtaran yazıçının həyata nikbin baxışının şahidi oluruq.

Uşaqlar sosial ziddiyyətlərin qurbanıdır mövzusunu araşdırarkən Çarlz Dikkensin digər bir əsərinin adını qeyd etməmək mümkün deyildir. Bu onun demək olar ki, uşaqlıq həyatından bəhs edən "Balaca Dorrit" əsəridir. Əksər hallarda oğlanları və ya kişiləri əsərlərinə baş qəhrəman seçən Dikkens bu əsərində kiçik bir qızı – kiçik Dorriti bu romanın qəhrəmanı səviyyəsinə qaldırır.

Ana nəvazişindən məhrum olan Dikkens həbsxana divarları arasında dünyaya gələn, orada da böyüyüb boya başa çatan Balaca Dorritin simasında əslində öz bioqrafiyasını oxucuya təqdim etmişdir. Çarlz Dikkens Balaca Dorritin uşaqlığnı və gəncliyini borclular həbsxanasında keçirməyini göstərməklə, valideynləri, böyükləri, dolayı yolla isə cəmiyyəti

uşaq taleyi qarşısındakı cavabdehlik hissini bir an da itirməməyə, uşaqların aqibəti üçün məsuliyyət daşıdıqlarını bədii sözün qüdrəti ilə oxucularına təqdim edir. "Oliver Tvistin macəraları" romanında qaldırılmış məsələ, kimsəsiz uşaqların taleyi üçün keçirilən narahatçılıq hissi bu romanda daha da dərinləşərək dövrün ən böyük sosial bəlası kimi təqdim olunur.

Böyük ədib "Balaca Dorrit" romanının bir yerində kasıbların üst-başı tökülmüş, cır-cındır paltarlı uşaqlardan danışarkən, onları artıq Poliplərin evinin əsasını oyub zədələyən və nəticədə onların başına uçuracaq siçanlarla müqayisə edir. Məsələyə yazıçının bu cür yanaşması onun ictimai-siyasi görüşlərinin dəyişildiyindən xəbər verir və göstərir ki, əvvəllər ictimai tərbiyəyə üstünlük verən yazıçının inqilabi yola meylliliyi özünü göstərir. Yazıçı ingilis cəmiyyəti və uşaq taleyinin gələcəyi barədə nikbin proqnozla çıxış edərək inanır ki, yeni gənc nəsil ingilis xalqına qənim kəsilən mənfur, qərəzli Polipləri nəhayət ki, yer üzündən silib atacaqdır.

**Məqalənin aktuallığı.** Dikkensin əsərlərində toxunulan kimsəsiz uşaqların acı taleyi problemi müasir dövrdə də bir çox ölkələrdə mövcud olduğundan məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə araşdırılan problem təkcə bədii cəhətdən nəzərdən keçirilmir, eyni zamanda dövlətin bu vacib məsələnin həllinə düzgün yanaşma mexanizmi göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Dikkens Ç. Oliver Tvistin Macəraları. Bakı: Gənclik, 1977.
2. Диккенс Ч. Собрание сочинений. Том двадцатый. М., 1960.
3. Ивашева В. В. Творчество Диккенса. МГУ, 1964.
4. Abeltina R. English and American Literature. Riga, "ZVAIGZME" Publishing House, 1976.


**С. Эйвазова**

## Дети – как жертва социальных противоречий в произведениях Чарльза Диккенса

## Резюме

В этой статье повествуется об ущербе, наносимом детской нравственности описанными в произведениях Ч. Диккенса социальными противоречиями. Подверженный с ранних лет жизни бесчисленным лишениям Ч. Диккенс на протяжении всего творчества, в особенности в романах «Приключения Оливера Твиста» и»Крошка Доррит» описал бездушное отношение к детским судьбам.

**S. Eyvazova**

# In Charles Dickens's literary works children as the victims of social contradictions

## Summary

In this article is studied how the social contradictions damage to child's spirit. Charles Dickens who underwent uncountable depravations of the life during his childhood described openly in his novels, "Oliver Twist" and "Little Dorrit", the ignorance to children destiny.

**Redaksiyaya daxil olub:** 12.09.2019